# Lənkəranda daha bir bulaq şəhid adını daşıyır








Lənkəranda şəhid ailələrinin adlarının əbədiləşdirilməsi istiqamətində ardıcıl işlər aparılır. Küçələrə şəhidlərin adları verilir, xatirə guşələri yaradılır, şəhid bulaqları açılır.

Bu günlər Girdəni kəndi ərazisində şəhid Emil Vaqif oğlu Qurbanovun adına tikilmiş bulağın açılışı olub. Açılış mərasimində rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, şəhid ailə üzvləri və qazilər iştirak ediblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun qəhrəmanlığı, xalqın birliyi hesabına qazanılan Zəfər sayəsində torpaqlarımız uzunmüddətli düşmən işğalından azad olunub, beynəlxalq aləmdə ölkəmizin nüfuzu yüksəlib.

Bütün bunlara, əlbəttə, şəhid və qazilərimizin qanı ilə nail olmuşuq. Onlar əsl qəhrəmanlardır. Şəhid Emil Qurbanov da bu qəhrəmanlardan biridir. O, ehtiyatdakı zabit olub. Ailəli olmasına baxmayaraq, çağırış məntəqəsinə gəlib döyüş bölgəsinə göndərilməsini xahiş edib. Əsl vətənpərvər kimi əsgər yoldaşları ilə döyüşə atılan Emil düşmənə ağır zərbələr vuraraq torpaqlarımızın azad olunmasında böyük şücaət göstərib. Emil Qurbanov qəhrəmancasına həlak olub. Onun rəşadəti gənclərə nümunədir.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Ü.Əliyeva, şəhidin həyat yoldaşı və şəhid Vüsal Kazımovun atası, Lənkəran Dövlət Universitetinin prorektoru Kamran Kazımov çıxış edərək şəhidlərin adlarının əbədiləşdirilməsinə və şəhid ailələrinə göstərilən yüksək diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 7 sentyabr.- S.7.